**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

**ƏMR**

**16 mart 2026-cı il** **10-1/3-1-39/2026**

# Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə əməl edilmədiyinə və peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatların təqdim edilməməsinə görə intizam və tənbeh tədbirləri barədə

Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 6.1-ci "Auditorların bağladığı müqavilələrin məbləğlərinin və müqavilə üzrə verilmiş rəylərin gündəlik təhlili, təkliflərin hazırlanması və müvafiq tədbirlərin görülməsi" bəndinə uyğun olaraq, məsul icraçılar (V.Cavadov, R.Cəfərli) tərəfindən 2026-cı il 13 fevral tarixli xidməti məktubla təqdim edilmiş cari ilin 15-22 yanvar tarixləri üzrə aparılmış araşdırmanın nəticəsinə əsasən Palata Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nə əməl etmədiyinə, habelə peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatları təqdim etmədiyinə görə Şuranın 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnaməyə uyğun olaraq "Global and Legal Audit" məhdud məsuliyyətli cəmiyyəti (direktor – Qarayev Rüfət Niyazi oğlu) barəsində intizam və tənbeh tədbirləri görülməsi məqsədilə **əmr edirəm:**

1. Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nə əməl etmədiyinə və peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatları təqdim etmədiyinə görə Palata Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnamənin 5-ci "Xəbərdarlıq tənbehi" maddəsinin 8-ci "Palatanın rəhbərliyi, müvafiq struktur bölmələri, Palata Şurası yanında komitə və komissiyalar tərəfindən peşə mənsublarından / üzvlərindən peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatların təqdim edilməməsi" bəndinə əsasən və peşə fəaliyyəti ilə bağlı tələb edilən lazımi sənəd və məlumatları təqdim etmədiyinə görə "Global and Legal Audit" məhdud məsuliyyətli

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/HwzzA9Ch9rnYdRBdn4l5bpJP4c6emcd3QjxWF9F5p%2F0%3D

cəmiyyətinə (direktor – Qarayev Rüfət Niyazi oğlu) şəxsi işinə qeyd edilməklə xəbərdarlıq elan edilsin.

2. Auditin təşkili, hesabatlılıq və icra intizamına nəzarət idarəsinə (V.Cavadov, Z.Almazov) tapşırılsın ki, bu əmrdən irəli gələn məsələləri həll etsin.

3. Bu əmrin mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/HwzzA9Ch9rnYdRBdn4l5bpJP4c6emcd3QjxWF9F5p%2F0%3D